BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Sosial-siyasi elmlər seriyası 2008*

# EKOLOJİ TƏHLÜKƏSİZLİK: MÜHÜM AMİLLƏR VƏ ƏSAS XÜSUSİYYƏTLƏR

**A.A.MƏHƏRRƏMOV**
***Bakı Dövlət Universiteti***

Ətraf mühitin qorunması və ondan məqsədəuyğun istifadə olunması müasir dövrün qlobal problemlərindən biridir. Bu problemlərin həllində bütün dövlətlər maraqlı olmalıdırlar, problemləri həll etmək üçün həm milli, həm də beynəlxalq səviyyədə ətraf mühitin mühafizəsini və təbii ehtiyatlardan səmərəli istifadə olunmasını tənzimləyən ekoloji standartların müəyyən olunması vacibdir. Müasir dövrdə ayrılıqda bir dövlət üçün ekoloji təhlükəsizlik sisteminin yaradılması mümkün olmayan bir haldır. Bu sahədə yalnız birgə səylə, müvafiq hüquqi rejim yaratmaqla, bugünkü və gələcək nəsillərin sağlam yaşayışını və inkişafını təmin etmək olar.

70-ci illərdən başlayaraq ətraf mühit problemləri dövlətləri daha çox narahat etməyə başlamışdır ki, bu da bilavasitə geniş elmi-texniki tərəqqi ilə sıx bağlıdır. Atom, kimyəvi, bakterioloji və s. silahların istehsalı və istifadəsi ekoloji krizislərin yaranması üçün çox mühüm istiqamətdir. Dövlətlər ekoloji krizislərdən çıxış yolunu bu sahədə mühüm müqavilələrin və sazişlərin bağlanması yolu ilə həll etməyə çalışırlar. Çünki məhz bu sahədə dövlətlərin fəaliyyətlərinin əlaqələndirilməsi bu problemlərin həllində bəlkə də yeganə vasitələrdən hesab edilməlidir.

Təsadüfi deyil ki, ədəbiyyatda qeyd edilir ki, bəşəriyyətin gələcəyi ətraf mühitin nə dərəcədə bütövlüyündən və inkişafından birbaşa asılıdır, bütün bunlar milli iqtisadiyyatın planlaşdırılmasında və bütünlüklə, dünya təsərrüfatının strukturunda nəzərə alınır. Ekoloji təhlükəsizliyin optimal əsaslarının qurulması ona qanunyaradıcılığın müxtəlif sahələrinin və dövlət nizamlanması sisteminin fəaliyyətinin cəlb edilməsini qarşıya qoyur (1, s.229).

Ətraf mühitin beynəlxalq hüquqi mühafizə problemi qlobal problemlərdən sayılır. Belə ki, insanın fəaliyyəti nəticəsində təbiətə göstərdiyi təsir heç bir dövlət sərhədi tanımır. Baş verən ekoloji böhranın dərinləşməsi, artması ümumbəşəri maraqlara toxunur. Məsələn, atmosferə atılmış bir ton karbon qazı, daxilolma yerindən asılı olmayaraq, bütövlükdə yer atmosferi üçün mühüm istilik effektinin meydana çıxmasına səbəb olacaq. Atılma və mühitin çirklənmə mənbəyi də bunun kimidir: onlar hər tərəfə yayılırlar.

Hal-hazırda ekoloji böhrandan çıxmaq üçün ekoloji təhlükəsizliyi təmin etmək lazımdır. Ekoloji təhlükəsizliyi təbii proseslərin özünütənzimlənməsini müdafiə edən ətraf mühitin müəyyənləşdirilmiş xüsusiyyətlərinin məcmuu kimi qəbul etmək olar. Bu zaman insanın ətraf mühitə təsiri - ekoloji sistemdə neqativ hallar istisna olmaqla və

ekosistemdə tarazlığı saxlamaq şərtilə minimal səviyyədə saxlanılır (10, s. 523).

Son zamanlar beynəlxalq hüquq ədəbiyyatlarında təbii mühitin mühafizəsinə ənənəvi yanaşmaların dəyişdirilməsini nəzərdə tutan yeni siyasi-hüquqi konsepsiya qismində ekoloji təhlükəsizlik konsepsiyası çıxış edir. Bu konsepsiya bütün dövlətlərin sabit və təhlükəsiz inkişafına yardım etməyə xidmət edir. Bu konvensiyanın işlənib hazırlanması ətraf mühitin, vətəndaşların həyatına və əmlakına təbii resursların çirkləndirilməsi, zədələnməsi, məhv edilməsi, qeyri-rasional istifadəsi, təbii ekoloji sistemlərin dağıdılması və başqa ekoloji cinayətlərin törədilməsi yolu ilə vurulan ziyanın qarşısının alınması və əvəzinin ödənilməsi ideyasına əsaslanır (12, s. 23).

Ekoloji təhlükəsizlik dedikdə, ekoloji planetlərin mürəkkəb qarşılıqlı əlaqəli sistemini və onların arasında mövcud təbii balansın qorunub saxlanılması və müdafiəsi başa düşülür (8). Ekoloji təhlükəsizlik konsepsiyasının yaranması ekoloji təhlükəsizliyin təmin edilməsi probleminin aktuallığı ilə bağlıdır. Son zamanlar qlobal ekoloji fəlakətlərin baş verməsi təhlükəsinin artması, ətraf mühitin və onun tərkib hissələrinin vəziyyətinin pisləşməsi ekoloji təhlükəsizlik konsepsiyasının yaranmasına təsir göstərən əsas amillərdən biri hesab olunur.

Ekoloji təhlükəsizlik konsepsiyasının hüquqi məzmunu dövlətlərin öz vəzifələrini yerli, milli, qlobal və regional səviyyələrdə ekoloji stresslərə artmaqda olan təsirləri aradan qaldırmaq yolu ilə həyata keçirilməsindən ibarətdir.

Ekoloji təhlükəsizlik problemi dövlətləri onlar ekologiya sahəsində əməkdaşlıq etməyə başladıqları andan maraqlandırırdı. Elə ətraf mühitin mühafizəsi məsələlərini əhatə edən ilk sazişlər məhz onun təmin edilməsini nəzərdə tuturdu (4, s. 572). Beynəlxalq ekoloji təhlükəsizlik beynəlxalq münasibətlərin elə vəziyyətini nəzərdə tutur ki, bu zaman ətraf mühitin qorunub saxlanması, ondan istifadə və keyfiyyətinin yüksəldilməsi təmin edilir.

Ekoloji təhlükəsizliyin anlayışı ilə bağlı ədəbiyyatlarda ciddi fikir müxtəlifliyi mövcuddur. Bu da onunla bağlıdır ki, təhlükəsizlik kimi ekoloji təhlükəsizlik də çoxtərəfli struktura malik mürəkkəb anlayışdır. Məsələn, E.N.Jevlakov ekoloji təhlükəsizlik dedikdə həyatın bioloji əsaslarının müdafiə olunmuş vəziyyəti başa düşülür. V.V.Petrov isə ekoloji təhlükəsizliyin insanın həyati əhəmiyyətli ekoloji maraqlarının və ilk növbədə, həyat üçün təmiz, sağlam, əlverişli ətraf mühitə olan hüquqlarının müdafiə olunmuş vəziyyəti kimi xarakterizə edir (13).

Ekoloji təhlükəsizliyin bir qədər geniş tərifini Y.M.Kolosov vermişdir. Onun fikrincə, ekoloji təhlükəsizlik-ekoloji problemlərin mürəkkəb qarşılıqlı əlaqəli və qarşılıqlı asılılıqlı sistemi, habelə onların arasında mövcud təbii balansın qorunub saxlanılması və müdafiə edilməsidir (6).

B.V.Yerofeyev fərqli bir təriflə bu məsələyə toxunmuşdur. O, qeyd edirdi ki, ekoloji təhlükəsizlik dedikdə, qlobal xarakterli sabit vəziyyət, ayrı-ayrı və qarşılıqlı asılı elementlər sisteminin mürəkkəb siyasi-hüquqi birliyi, mənbələri dövlətin hüdudlarında yerləşən zərərli təsirdən dövlətin ətraf mühitinin mühafizəsinin hüquqi təşkilati və maddi təminatı kompleksi başa düşülür (5).

Ekoloji təhlükəsizliyə verilən təriflər ekoloji təhlükəsizliyin üç əsas obyektini ayırmağa imkan verir: insan, onun sağlam və əlverişli ətraf mühitə olan hüququ; cəmiyyət və onun ekoloji vəziyyətindən asılı

olan maddi və mənəvi dəyərləri; təbii resurslar və təbii mühit.

Ədəbiyyatlarda fikir müxtəlifliyi yaradan başqa bir məsələ ekoloji təhlükəsizliyin təmin edilməsi və ətraf mühitin mühafizəsi anlayışlarının qarşılıqlı nisbətidir. M.M.Brinçukun fikrincə, ekoloji təhlükəsizlik üzrə normalar təbii resursların və ətraf mühitin mühafizəsi münasibətlərindən əlavə özünəməxsus şəkildə ifadə olunmuş münasibətləri nə müəyyən etmir, nə də tənzim etmir. Ekoloji təhlükəsizliyin təmin olunmasında isə təbiətin mühafizəsinin və istifadəsinin tənzimlənməsinin hüquqi vasitələrindən fərqli heç bir vasitələrdən istifadə edilmir (3).

Beynəlxalq hüquq ədəbiyyatında ekoloji təhlükəsizlik daha geniş kontekstdə ifadə edilir. Ekoloji təhlükəsizlik bizim planet üçün həyati əhəmiyyətli ekoloji komponentlərin qorunması və həmin komponentlər arasında zəruri təbii balansın saxlanılmasıdır. Tərk-silah və ekoloji təhlükəsizliyi tədqiq edən A.V.Kukuşkina qeyd edir ki, ekoloji təhlükəsizliyin anlayışına bəşəriyyətin həyati əhəmiyyətli ekoloji komponentlərinin təhlükəsizliyinin təmin olunmasına, həmçinin, mövcud təbii balansın qorunmasına yönələn beynəlxalq ekoloji normalarının sisteminin qarşılıqlı əlaqəsi və asılılığı aiddir (9).

Ekoloji təhlükəsizlik üçün nə qədər fərqli konsepsiya olsa da, burada həlledici məsələ yarana biləcək riskin aradan qaldırılması ilə bağlı anlayış həlledici olmalıdır. M.N.Kopılov qeyd edir ki, ekoloji təhlükəsizlik konsepsiyasının əsasını ekoloji risk nəzəriyyəsi, daha doğrusu, xidmət və məhsulların dəyərinin müəyyən edilməsi zamanı riskin mümkün səviyyəsi təşkil etməlidir (7, s. 10).

Bir sıra amillər var ki, bunlar ekoloji təhlükəsizliyin yaranmasına səbəb olur. Bu amillər aşağıdakılardır: sosial-iqtisadi, texnoloji problemlərin onların ətraf mühitə təsiri nəzərə alınmadan həll olunması; ərazidə ekoloji və antropogen yüklənmənin qeyri-bərabər paylanması, torpaqların məhsullarının,içməli su ehtiyatlarının tükənməsi; sənayesi yüksək inkişaf etmiş regionlarda ekoloji tarazlığın pozulması, ətraf mühitin çirklənməsi, təbii resursların mənimsənilməsi, ətraf mühitin effektsiz mühafizəsi; ekoloji hüquqpozmalarla ətraf mühitə və insanların sağlamlığına vurulan zərərin miqyasına və ağırlığına adekvat olan zərərin əvəzinin ödənilməsinin sosial-iqtisadi və hüquqi təminat sisteminin mövcud olmaması; ekoloji təhlükəsizlik haqqında əhalinin maarifləndirilməsi sisteminin zəifliyi.

Ekoloji təhlükəsizliyin təmin olunması üçün aşağıdakı tədbirlərin görülməsi zəruridir: bunun üçün ilk növbədə ekoloji təhlükəsizliyin təmin edilməsi sferasında dövlət idarəetmə sistemi möhkəmlənməlidir; ekoloji hüquqpozmalarını törədən şəxslərin məsuliyyətə cəlb olunması praktikası mükəmməlləşdirilməlidir; ətraf mühitin mühafizəsi sahəsində hüquq pozuntularına görə məsuliyyəti müəyyən edən inzibati-hüquqi normaların zəifliyi aradan qaldırılmalıdır; ekoloji təhlükəsizliyin təmin edilməsi məqsədilə beynəlxalq əməkdaşlıq həyata keçirilməlidir; insanların ekoloji təhsili və tərbiyəsi yüksəldilməlidir, mütəxəssislərin hazırlıq səviyyəsi artırılmalı və insanların ekoloji mədəniyyəti yüksəldilməlidir.

"Ekoloji təhlükəsizlik haqqında" 8 iyun 1999-cu il Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində ekoloji təhlükəsizlik sahəsində dövlət siyasətinin əsas istiqamətləri müəyyən olunmuşdur: ölkənin inkişaf strategiyasının formalaşmasında və həyata keçirilməsində ekoloji təhlükəsizliyin üstün qaydada təmin olunması;

ekoloji təhlükəsizliyin dünya, regional və yerli səviyyədə təmin olunması üçün əməkdaşlıq etmək; biosferin və onun bütün komponentlərinin qorunub saxlanılması, insanların həyatı üçün ekoloji cəhətdən təhlükəsiz şəraitin yaradılması; ölkə ərazisində, o cümlədən, Xəzərin Azərbaycan Respublikası bölməsində dövlət və yerli özünüidarəetmə fəaliyyətinin təmin olunması; təhlükəli və fövqəladə ekoloji vəziyyətin qarşısının alınması, onun nəticələrinin aradan qaldırılması üçün tədbirlərin hazırlanması və həyata keçirilməsi; ətraf mühitə təsir edən təsərrüfat və başqa fəaliyyətin ekoloji təhlükəsizliyinin təmin edilməsi mövqeyindən nizama salınması.

Ekoloji təhlükəsizliyin təmin olunmasının əsas məqsədi insanı, onun həyat və sağlamlığına təhlükə törədən ətraf mühitin qeyri-sağlam təsirlərindən qorumaqdır. Ekoloji təhlükəsizlik və insan hüquqlarının qarşılıqlı əlaqəsinin tanınması qloballaşmanın, ekoloji problemlərin çətinliyi, kəskinliyi və çoxcəhətliliyinin başa düşülməsinə kömək edir. Ekoloji təhlükəsizlik, inkişaf, demokratiya və insan hüquqları – XX yüzilliyin sonu üçün xarakterik olan əsas konsepsiyalardır.

Qeyd edək ki, uzun müddət ekoloji təhlükəsizliyin təmin olunması nə dövlətlərin, nə də cəmiyyətin prioritet məsələlərindən hesab edilmirdi. Məsələn, mühüm beynəlxalq əhəmiyyətə malik olan BMT Nizamnaməsində nə ətraf mühitin mühafizəsi, nə də ekoloji təhlükəsizlik haqqında müddəaların olmamasını xatırlamaq kifayətdir. Lakin dövlətlərin sərhədlərinin təbii sərhədlər ilə üst-üstə düşməməsi dövlətləri ekoloji sahədə əməkdaşlıq etməyə vadar edir. Belə əməkdaşlıq özündə siyasi, hüquqi, təşkilati, iqtisadi və digər xarakterli kompleks tədbirləri ehtiva edir. O, ekoloji hüquq qaydasının formalaşdırılması və möhkəmləndirilməsi, həm dövlətlərin sərhədi çərçivəsində, həm də onun hüdudlarından kənarda ekoloji təhlükəsizliyin təmininə yönəlmişdir.

Ekoloji təhlükə 3 istiqamətdə baş verir: ətraf mühitin çirklənməsi; təbii ehtiyatların tükənməsi; təbii mühitin dağıdılması. Bununla bağlı, ekoloji təhlükəsizliyə mənfi təsir göstərən amillər, o cümlədən, bəşəriyyətin qarşısında duran əsas qlobal ekoloji problemlər aşağıdakılardır: iqlimin dəyişməsi; ozon qatının azalması; turşu yağışları; səhralaşma; bioloji müxtəlifliyə təhlükə; əhalinin artımı (demoqrafik partlayış); resurs böhranı.

K.A.Bekyaşev ekoloji təhlükəsizliyə neqativ təsir göstərən digər faktorları göstərmişdir: təbiətin ayrı-ayrı ünsürlərinin qeyri-səmərəli, hətta vəhşicəsinə istehlak və məhv edilməsi; ətraf mühitin çirklənməsi; sürətlə silahlanma, hərbi münaqişələr və lokal müharibələr.Lakin bəşəriyyət və biosfer (canlı mühit) üçün ən ciddi təhlükəni, o, nüvə silahı, ətraf mühitin radioaktiv çirklənməsi hesab etmişdir (11, s. 507).

Ekoloji təhlükəsizliyin pozulması istər-istəməz ekoloji vəziyyətin kəskinləşməsinə səbəb olur: təbii ehtiyatların azalması, çirklənməsi baş verir, insanla təbiət arasında təbii rabitə yox olur, estetik dəyərlər itirilir, insanların fiziki və mənəvi sağlamlığı pisləşir, xammal bazarları uğrunda iqtisadi və siyasi mübarizə kəskinləşir. Ətraf mühitin çirklənməsi insanların sağlamlığına mühüm təsir göstərir. Statistik göstəricilərə görə son illərdə kişilərin orta yaş dövrü 68-i keçmir. Hər on uşaqdan biri əqli və fiziki qüsurla doğulur. Bu cür məlumatlar siyahısı həddən artıq genişdir (2, s. 26).

Ekoloji təhlükəsizlik dövlət orqanlarının, o cümlədən, onun bəşəriyyətin ümumi təhlükəsizliyinin təmin edilməsi sahəsindəki orqanlarının fəaliyyətinin ayrılmaz hissəsidir. Buna görə də ekoloji

təhlükəsizliyin təmin olunmasının nəzəri və praktiki məsələləri – qlobal məsələlərin həlli yolunda kəskin problemlərdən biridir. Bunlara Azərbaycanın vahid maraqları çərçivəsində baxılmalıdır. Söhbət, ətraf mühitə təhlükə yaradan halın və situasiyanın aradan qaldırılmasına yönəlmiş fəaliyyətdən gedir. Bu ondan irəli gəlir ki, ekoloji təhlükəsizlik Azərbaycanın təhlükəsizliyinin tərkib hissəsidir. Hətta beynəlxalq münasibətlər nəzəriyyəsində də ekoloji təhlükəsizlik konsepsiyası dövlətlərin təhlükəsizliyi və beynəlxalq təhlükəsizlik üçün ekoloji xarakterli potensial və real təhlükələrə cavab olan ümumi təhlükəsizlik konsepsiyası kimi nəzərdən keçirilir. Qeyd edək ki, Azərbaycan Respublikası hökuməti tərəfindən təxirəsalınmaz ekoloji proqramlar hazırlansa da, lazımi maliyyənin olmaması üzündən onların həyata keçirilməsi çox ləng gedir.

Ekoloji təhlükəsizliyin hüquqi əsasını ekoloji təhlükəsizliyin təmin edilməsinə, ətraf mühitdən səmərəli istifadə edilməsinə, təbii sərvətlərin bərpasına və artırılmasına yönəldilmiş qanunla müəyyən edilmiş tədbirlər sistemi kimi şərh etmək olar. Bu cür tədbirlər sistemini müəyyən edən qanun ekoloji təhlükəsizlik sahəsində ictimai münasibətləri tənzimləməlidir. Ətraf təbii mühitin mühafizəsi haqqında qanunvericiliyin gündəlik həyatda dəqiq icra edilməsi – onun sağlamlaşdırılmasına, regionlarda və bütövlükdə ölkədə ekoloji təhlükəsizliyin təmin edilməsinə kömək göstərir.

Ekoloji problemlərin beynəlxalq xarakteri beynəlxalq münasibətlərə toxunan ən ümdə məsələlərin yaranmasına səbəb olmuşdur. Bu, hər şeydən əvvəl, kosmik vasitələrdən istifadə də daxil olmaqla ətraf mühitin qlobal monitorinqinin, beynəlxalq icarəçiliyin əsaslarının işlənib hazırlanmasına; ekoloji təhlükəsizlik və onun beynəlxalq gərginliyin zəiflədilməsi və konfliktlərin aradan qaldırılmasına təsiri kimi məsələlərin öyrənilməsi, həmçinin, milli, regional və qlobal təhlükəsizliyin təmin edilməsinə; milli suverenliyin beynəlxalq ekoloji təhlükəsizliyin təmin edilməsindəki əhəmiyyətinin dərk edilməsinə; müxtəlif növ ekoloji təhlükələrin beynəlxalq münasibətlərə təsirinin nəzərə alınmasına; ekoloji diplomatiya və beynəlxalq ətraf mühiti hüququna yönəlmişdir. Bəşəriyyətin ümumi dəyəri kimi planetin ehtiyatlarından səmərəli istifadəni təmin edən hüquq bərabərliyinə əsaslanan beynəlxalq prosedur və mexanizmlərin işlənib hazırlanması zərurəti yaranmışdır.

Göründüyü kimi, bəşəriyyətin inkişafının hazırkı mərhələsində insanın ekoloji təhlükəsizliyinin təmin edilməsi məsələsi dünya ictimaiyyətinin əsas prioritet məsələlərindən biridir. Beynəlxalq hüquq isə dövlətlərin əməkdaşlığı, beynəlxalq proqram və layihələrin realizəsinə əsas yaradaraq ekoloji təhlükəsizliyin təmin edilməsinə kömək göstərir. Ekoloji təhlükəsizliyin təmin edilməsində və insan hüquqlarının müdafiəsində özünəməxsus əlaqələndirici rolunu oynayan beynəlxalq hüquq ekoloji təhlükəsizliyin effektiv təminini həyata keçirməklə eyni zamanda insan hüquqlarının effektiv müdafiəsinə də xidmət etmiş olur.

Şərh edilənlər sübut edir ki, zəngin ehtiyatları olan dünya əhalisi başa düşməlidir ki, təbii sərvətlərdən limitsiz istifadə dövrü artıq keçmişdir. Hər şeyi ödəmək lazım gəlir: pulla, kəskin məhdudiyyətlə, məsuliyyətin tətbiq edilməsi ilə. Əks təqdirdə insan nəinki öz sağlamlığı ilə, həmçinin, gələcək nəsillərin rifahına görə haqq-hesab çəkməlidir, çünki ətraf mühitə neqativ təsir insan mövcudluğunun bioloji

əsaslarının məhv edilməsi, hannibalizmin müasir formasıdır (14, s. 4).

Bu şəraitdə insanlar ekoloji sayıqlığını artırmalıdırlar. Bu sahədə artıq addımlar atılmışdır. Dünyada ekoloji vəziyyəti qiymətləndirən və fəaliyyət planı hazırlayan ətraf mühitin qlobal nəzarət xidməti (monitorinq), ekoloji təhlükəsizliyin təmin edilməsinə yönələn təbiəti mühafizə prokurorluğu fəaliyyət göstərir. Ən ümdə isə ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizliyin təmin edilməsi, insan faktorunun prioritetliyi - dövlətlərin bu sahədə beynəlxalq əməkdaşlığından, beynəlxalq təşkilatların fəaliyyətindən, dövlətlərarası konfliktlərin yumşaq aradan qaldırılmasından çon dərəcə asılıdır. Ekoloji təhlükəsizlik sferasında beynəlxalq təşkilatların ümumi fəaliyyəti - təbii ətraf mühitin mühafizəsi, insanın əlverişli ətraf mühitdə yaşamaq hüququ, Yer planetinin problemlərinin həlli, kompleks təbii mühafizə monitorinqi, xüsusi təbii mühafizə tədbirləri (vəhşi təbiətin, balıq növləri ehtiyatının, beynəlxalq göl və çayların mühafizəsi, nüvə enerjisi mənbələrinin təhlükəsizliyi) və s. məsələləri əhatə etməli və təbii ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq ekoloji əməkdaşlıq prinsiplərindən ən ümdəsini - hər bir insan əlverişli ekoloji şəraitdə yaşamaq hüququna malikdir və hər bir dövlət öz vətəndaşlarının ehtiyacını təmin etmək və inkişafı məqsədilə təbii ətraf mühitin və təbii resursların istifadəsi hüququna malikdir - prinsipinə riayət etməlidir.

Ekoloji təhlükəsizlik kontekstində ekologiya problemlərinin tədqiqi bu sahədə meydana gəlmiş böhranların miqyasından xəbər verməklə insanla təbiətin qarşılıqlı münasibətində yeni qaydaların yaradılmasını, o cümlədən, təbii ehtiyatlardan istifadənin yeni qaydalarının təsis edilməsini zəruri edir. Hər hansı bir milli ekoloji təhlükəsizlik öz növbəsində digər milli ekoloji təhlükəsizliklə birlikdə təmin edilə bilər ki, bu da müəyyən bir qlobal, dünya ekoloji təhlükəsizliyinin təmin olunması ilə mümkün ola bilər.

Qlobal ekoloji təhlükəsizliyin təmin olunması beynəlxalq hüquqi vasitələrlə həyata keçirildikdə və zəruri institutların səmərəli fəaliyyəti mövcud olduqda problemin həllinə nail olmaq mümkündür Ekoloji təhlükəsizliyin beynəlxalq hüquqi analizi eyni zamanda problemin dövlətdaxili qanunvericilik, doktrinal yanaşmanın da analizini tələb edir. Ekoloji təhlükəsizliyin milli konsepsiyası ayrı-ayrı dövlətlərin konstitusiyalarının, qanunvericilik aktlarının, ümumiyyətlə, ekoloji təhlükəsizliyə aid olan digər aktların müddəa və prinsiplərinə əsaslanır. Bu mənada həmin aktlarda təhlükəsizliyin obyektləri, təhlükəsizliyin tərkib hissələri kimi çıxış edən növləri fərqləndirilir. Dövlətin milli maraqları və milli maraqlara təhlükə yaradan problemlər, həmçinin, həmin problemlərin aradan qaldırılması istiqamətində milli prioritetlər müəyyən edilir. Ekoloji təhlükəsizliyin təmin olunmasında milli prioritetlər əsasən üç istiqamətdə formalaşdırılır: milli ekosistemin xarici təsirlərdən asılılığının azaldılması yolu ilə ekoloji təhlükəsizliyin təmin edilməsi; xarici təsirləri adaptasiya edə biləcək ekosisitemin yaradılması; ətraf mühitə neqativ təsirləri aradan qaldırmaq üçün əməkdaşlıq qeyd edilməlidir.

Bir çox ölkələrin müasir ekologiya qanunvericiliyində təhlükəsizliyin ənənəvi obyektləri (dövlət, cəmiyyət, şəxsiyyət) ilə yanaşı onlarla sıx əlaqədə olan təbiət obyekti-biosfer, onun ekosistemi də təsbit edilir. Şəxsiyyətin, dövlətin və nəhayət, cəmiyyətin təhlükəsizliyi o halda təminatlı ola bilər ki, onun ekosistemi pozulmasın. Ekoloji təhlükəsizlik ətraf mühitin mühafizəsinin meyarı

olmaqla milli təhlükəsizliyin əhəmiyyətli tərkib elementi kimi davamlı və sosial inkişafa keçidi şərtləndirir. Davamlı inkişaf prinsipinə keçid bərpa olunan resursların istifadəsində müəyyən ardıcıllığın gözlənilməsi; bərpa olunmayan resursların istifadəsini minimuma endirməyi; tullantıların səmərəli surətdə zərərsizləşdirilməsini; təbii ehtiyatlardan istifadə zamanı inzibati xarakterli tədbirlərdən vergiqoymanın rolunun yüksəldilməsini nəzərdə tutmalıdır.

Ümumiyyətlə, ekoloji təhlükəsizliyin anlayış məsələsi ilə bağlı fikirlərimizi yekunlaşdırarkən belə bir nəticəyə gəlmək olar ki, istər dövlətdaxili, istərsə də beynəlxalq hüquqda ekoloji problemlərə təhlükəsizliyin pozulmasına yönələn təsir kimi baxılmaqdadır. Ekoloji təhlükəsizliyin hərtərəfli təmini yalnız beynəlxalq ekoloji təhlükəsizliyin qlobal mexanizmlərin, strukturların təsis olunması ilə nail olmaq mümkündür. Bu halda beynəlxalq ekoloji təhlükəsizlik beynəlxalq təhlükəsizliyə xələl gətirən istənilən ekoloji problemə mümkün hüquqi reaksiyanın strukturundan, həmçinin, idarəçilik praktikasından, prosedurundan, institut və normalarından ibarət beynəlxalq rejimdir.

Ekoloji təhlükəsizlik prinsipinin hüquqi məzmunu ondan ibarətdir ki, dövlət özünün fəaliyyətini elə qurmalıdır ki, istər yerli səviyyədə, istərsə də regional, qlobal səviyyədə ekoloji sarsıntıların artan təsiri istisna edilməlidir. Ekoloji təhlükəsizliyin ətraf mühitin mühafizəsində əhəmiyyətini müəyyən etmək üçün onun beynəlxalq hüquq normaları sistemində yeri aydınlaşdırılmalıdır. Beynəlxalq hüquq doktorinasında ekoloji təhlükəsizlik hüququnun fərqləndirilməsinə onun beynəlxalq hüququn bu və ya digər sahəsinə aid edilməsi istəyinə baxmayaraq hər bir halda burada ətraf mühitin mühafizəsinin təminat mexanizmindən söhbət gedir. Ətraf mühitin beynəlxalq hüququ özü kompleks xarakterli beynəlxalq hüquq sahəsi olduğundan ekoloji təhlükəsizlik də müxtəlif sahələrdə (məsələn, kosmik fəaliyyətdə, gəmiçilikdə ekoloji təhlükəsizlik və s.) problem kimi meydana çıxır. Ekoloji böhran problemi ətraf mühitin mühafizəsində təhlükəsizlik konsepsiyası meydana gətirib. Tədricən ekoloji təhlükəsizlik konsepsiyası beynəlxalq münasibətlər haqqında elmlərdən beynəlxalq hüquq elminə gətirilmişdir.

Qeyd edilənlərdən belə bir nəticə hasil olunur ki, ekoloji təhlükəsizlik prinsipi beynəlxalq hüququn ümumtanınmış normaları kateqoriyasına aid edilməkdədir. Özünün kompleks xarakterilə ekoloji təhlükəsizlik prinsipi ətraf mühitin beynəlxalq hüququ və beynəlxalq hüququn digər sahələrilə qarşılıqlı əlaqəsində mühüm rol oynayır. Bir tərəfdən bu ətraf mühitin beynəlxalq hüququna aiddirsə, digər tərəfdən beynəlxalq təhlükəsizlik hüququ ilə qarşılıqlı əlaqədə, beynəlxalq hüququn ayrılmaz komponentidir. Bu zaman, səmərəlilik nöqteyi-nəzərindən milli-hüquqi tənzimetməyə xüsusi yer verilməlidir.

## ƏDƏBİYYAT


1. Боголюбов С.А. Экологическое право. Учебник. М.: НОРМА, 2000.
2. Боголюбов С.А. Общественные объединения на страже природы. / Экология и бизнес. 1993, №3.
3. Бринчук М.М. Охраняем окружающую среду или обеспечиваем экологическую безопастность.1994, Н4
4. Ерофеев Б.В Экологическое право. М.: 1996.
5. Ерофеев.Б.В. Экологическое право России. М.:1996.
6. Kolosov Y.M. Beynəlxalq hüquq. Bakı: 2002.
7. Копылов М. Н. Право на развитие и экологическая безопасность развивающихся

государств (межлународно-правовые вопросы). Автореф. дисс... д-ра юрид. наук. МГИМО. М.: 2000.
8. Кукушкин. А.В. Становление принципа экологической безопасности в современном международном праве. МЖМП-1994-Н4
9. Кукушкина А. В. Взаимодействие проблем экологической безопасности и разоружение (международно- правовой аспект). Автореф. дисс... канд. юрид наук. МГИМО МИД. М.: 1993.
10. Международное право: Учебник. Под ред. А.А.Ковалева, С.В.Черниченко. М.: Изд-во Омега-Л, 2006.
11. Международное публичное право. Учебник. Издание 2-е, перераб. и доп. Под ред. К.А. Бекяшева. М.: ТК Велби, 2003.
12. Мышко Ф.Г. Экологическая безопасность. М.: 2003.
13. Петров В.В. Экологическое право России. М.: 1996
14. Экологические правонарушения и ответственность. М.: ЭАО Бизнес-школа «Интел-Синтез», 1997.

## ЭКОЛОГИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ: ОСНОВНЫЕ ФАКТОРЫ И ВАЖНЕЙШИЕ ОСОБЕННОСТИ

**А.А.МАГЕРРАМОВ**

**РЕЗЮМЕ**

В статье анализируются основные факторы и важнейшие особенности экологической безопасности в различных заключениях юридической литературы и международной практики. Отсюда можно придти к такому выводу, что принцип экологической безопасности относится к общеизвестным нормам международной практики. По своему комплексному характеру принцип экологической безопасности играет особую роль во взаимосвязи международного права окружающей среды с другими областями международного права.

Это, с одной стороны, если относится к международному праву, то с другой стороны, во взаимосвязи с международной безопасностью, является неотъемлемым компонентом международного права.

В этом случае, с точки зрения полезности надо уделить особое место национально-юридическому регулированию.

## ENVIRONMENTAL SECURITY: IMPORTANT FACTORS AND MAIN FEATURES

**A.A.MAHARRAMOV**

**SUMMARY**

The important factors and main features of environmental security are discussed in this article based on current diversity of opinion in the books on international law and the international practice. The conclusion is that the principle of environmental security is being regarded as one of the widely recognized principles of international law. The principle of environmental security plays an important role in interrelation of international environmental law with the other fields of international law though its complex peculiarity. While it is part of international environmental law on the one hand, it is interrelated with international security law on the other hand, and, thus, becoming an integral part of international law. National regulation must, however, have particular role from the efficiency point of view.